**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 445
10.33864/2617-751X.2026.v9.i1.321-332

# THE HISTORICAL DEVELOPMENT STAGES AND GEOPOLITICAL IMPACT OF THE LIVIYAN CIVIL WAR

**Ramil Usubov***

**Abstract.** In the early years of Qaddafi’s rule, Liviya was a state with a strong economic and political leadership position in the region. Revenues from the energy sector gave Liviya considerable autonomy in its struggle to become a regional power. However, this was met with opposition from Western countries. The reasons for this opposition were both the limited influence of Western states over Liviya’s oil and gas sector and Qaddafi’s support for armed groups in other countries.During the Arab Spring, Qaddafi was overthrown as a result of mass popular protests. One of the main reasons behind these protests was the unequal distribution of oil revenues. However, the 42-year authoritarian regime had prevented the formation of democratic institutions within the state. This, in turn, hindered the establishment of a new and stable government. In addition, the support of various internal groups by other states prolonged this process.The structural problem of the civil war that has continued since 2012 lies in the failure to properly establish an effective internal governance system.

**Keywords:** Civil war, Arab Spring, Energy resources, Militarization, Radicalism, Political struggle

---

* Master's student at Baku State University; Baku, Azerbaijan
E-mail: ramil.usubov23@gmail.com
https://orcid.org/0009-0004-2587-5580

**To cite this article:** Usubov, R. [2026]. THE HISTORICAL DEVELOPMENT STAGES AND GEOPOLITICAL IMPACT OF THE LIVIYAN CIVIL WAR. *“Metafizika” journal, 9*(1), pp.321-332.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.321-332
***Article history:***
**Received**: 26.11.2025 **Revised**: 06.01.2026 **Accepted**: 02.02.2026 **Published**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 445
10.33864/2617-751X.2026.v9.i1.321-332

# ИСТОРИЧЕСКИЕ ЭТАПЫ РАЗВИТИЯ И ГЕОПОЛИТИЧЕСКОЕ ВЛИЯНИЕ ГРАЖДАНСКОЙ ВОЙНЫ В ЛИВИИ

**Рамиль Усубов***

**Абстракт.** В первые годы правления Муаммара Каддафи Ливия являлась государством с сильными экономическими и политическими позициями в регионе. Доходы от энергетического сектора обеспечивали Ливии значительную самостоятельность в борьбе за статус региональной державы. Однако это вызвало противодействие со стороны западных стран. Причинами такого отношения стали как ограниченное влияние западных государств на нефтегазовый сектор Ливии, так и поддержка Каддафи вооружённых группировок в других странах. В период «арабской весны» Каддафи был свергнут в результате массовых народных протестов. Одной из основных причин этих протестов стало неравномерное распределение нефтяных доходов. В то же время 42-летний авторитарный режим препятствовал формированию демократических институтов внутри государства, что, в свою очередь, не позволило создать новое стабильное правительство. Кроме того, поддержка различными государствами отдельных внутренних группировок затянула данный процесс.Структурная проблема гражданской войны, продолжающейся с 2012 года, заключается в неспособности сформировать эффективную систему внутреннего государственного управления.

**Ключевые слова:** Гражданская война, Арабская весна, Энергетические ресурсы, Милитаризация, Радикализм, Политическая борьба

---

* Студент магистратуры Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: ramil.usubov23@gmail.com
https://orcid.org/0009-0004-2587-5580

**Цитировать статью:** Усубов, Р. [2026]. ИСТОРИЧЕСКИЕ ЭТАПЫ РАЗВИТИЯ И ГЕОПОЛИТИЧЕСКОЕ ВЛИЯНИЕ ГРАЖДАНСКОЙ ВОЙНЫ В ЛИВИИ. *Журнал «Metafizika», 9*(1), с.321-332.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.321-332
***История статьи:***
**Поступила**: 26.11.2025 **Переработана**: 06.01.2026 **Принята**: 02.02.2026 **Опубликована**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 445
10.33864/2617-751X.2026.v9.i1.321-332

# LİVİYA VƏTƏNDAŞ MÜHARİBƏSİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ GEOSİYASİ TƏSİRİ

**Ramil Usubov***

**Abstrakt.** Qəddafi ilk hakimiyyət illərində Liviya regionda iqtisadi və siyasi lider mövqeyinə malik bir dövlət idi. Enerji sahəsindəki gəlir Liviyanın regional güc olması uğrunda mübarizə aparmasında ona sərbəstlik verirdi. Lakin bu Qərb ölkələri tərəfindən etirazla qarşılandı. Bunun səbəbi həm qərb ölkələrinin Liviya neft və qaz sahəsinə kifayət qədər təsir edə bilməməsi həm də Qəddafini digər ölkələrdəki silahlı qruplaşmalara dəstək olması idi. Ərəb baharı zamanı Kütləvi xalq etirazları ilə qəddafi hakimiyyətdən devrildi. Bunun başlıca səbəblərindən biri neft gəlirlərinin qeyri-bərabər paylanması idi. Lakin 42 illik avtoritar rejim dövlət daxilində demokratik institutların formalaşmasının qarşısını almışdı. Bu isə yeni stabil hökümətin qurulmasının qarşısını aldı. Həmçinin digər dövlətlərin müxtəlif daxili qrupları dəstəkləməsi bu prosesi uzatdı. 2012-ci ildən davam edən vətəndaş müharibəsinin struktural problemi daxili idarəetmə sisteminin düzgün formalaşmamağıdır.

**Açar sözlər:** vətəndaş müharibəsi, ərəb baharı, enerji, silahlanma, radikalizm, siyasi mübarizə

---

* Bakı Dövlət Universitetinin magistrantı; Bakı, Azərbaycan
E-mail: ramil.usubov23@gmail.com
https://orcid.org/0009-0004-2587-5580

**Məqaləyə istinad:** Usubov, R. [2026]. LİVİYA VƏTƏNDAŞ MÜHARİBƏSİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ GEOSİYASİ TƏSİRİ. *“Metafizika” jurnalı, 9*(1), səh.321-332.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.321-332
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 26.11.2025 **Yenidən baxılıb**: 06.01.2026 **Təsdiqlənib**: 02.02.2026 **Dərc olunub**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Liviya Afrikanın ən böyük ölkələrindən biridir. Aralıq dənizi sahilində yerləşən bu ölkənin əsas gəlir mənbəyi neft və qaz ixracıdır. Bu onu geosiyasi mənada regionun ən vacib və əhəmiyyətli ölkələrindən biri edir.Liviya 1911-ci ildə baş verən Trablusqarp savaşından sonra İtaliya nəzarətinə keçdi. 1951-ci ildə isə müstəqillik qazandı. Daha sonra 1969-cu ildə ölkədə baş verən dövlət çevrilişindən sonra Muhammer Qaddafi hakimiyyətə gəldi. Liviya ölkəsi əsasən ərəblərdən ibarətdir. Bu isə ölkə daxilində milliyətçilik ideologiyasının geniş yayılmasına səbəb olur. Zəngin enerji ehtiyatı olan Liviya həm Avropa həm də Amerika üçün strategi və geosiyasi olaraq əhəmiyyətli bir ölkədir. Lakin Qəddafı anti-imperialist xarici siyasət yürüdürdü. Həmçinin neft və qaz sektorunu milliləşdirmişdi. Bu isə ona qarşı bir çox sanksiyaların tərtib olunmasına gətirib çıxartdı. Liviya vətəndaş müharibəsinin təməlində Qəddafi və onun qərb ilə münasibəti vacib rol oynayır. 2011-ci ildə 42 illik avtoritar rejiminə xalq tərəfindən son qoyuldu. Lakin bu ölkə və ya region üçün yeni demokratik dövrün başlanğıcı deyildi. Liviyada 2012-ci ildən etibarən davam edən vətəndaş müharibəsi regional təhlükəsizlik üçün böyük bir təhdiddir. Liviya daxilindəki baş verən qruplaşma və vətəndaş müharibəsinin əsas səbəbi demokratik institutların formalaşmamasıdır. Bu problem günümüz dövründə belə öz aktuallığını qoruyur.

## 2.Qəddafinin son hakimiyyət illəri və ərəb baharı

Muammar al-Qaddafi 1969-cu ildə hakimiyyətə gəldi. O öz xarici siyasətində anti-imperialist xarakterli addımlar atırdı. Buna görə də o Liviya yerləşən Amerika və Birləşmiş krallığa aid hərbi bazaları ləğv etdi. Qəddafi daxili və iqtisadi siyasətdə milliləşdirmə paradiqmalı islahatlar həyata keçirirdi. Bu minvalda 1975-ci ildə çap olunan yaşıl kitap Qəddafinin ideologiyasını tam əks etdirir [Britannica, 2018].

Qəddafi hakimiyyətə gəldikdən dərhal sonra ölkə daxilində fəaliyyət göstərən xarici enerji şirkətlərinin fəaliyyətini dayandırdı. Neft və qaz sektorunu milliləşdirdi. Bu Liviya ölkəsini iqtisadi cəhətdən gücləndirdi. İqtisadi azadlıq isə xarici siyasət üçün sərbəstlik mənasına gəlirdi. Qəddafi regional gücünü artırmaq istəyirdi. Buna görə də o digər dövlətlərdə fəaliyyət göstərən silahlı və siyasi qruplaşmaşmalara dəstək oldu. Bu isə beynəlxalq sferada bir mənalı qarşılanmadı. Liviya əlehinə sanksiya və beynəlxalq təzyiq göstərildi.

1990-cı ildə Şotlandiyanın Lockerbie bölgəsi üzərində Pan Am 103 təyyarə reysi partladıldı . Bu terror aktının həyata keçirilməsində qəddafi ittiham olundu. Bu hadisə Liviya ilə qərb ölkələri arasında münasibətlərin gərginləşməsinə gətirib çıxartdı [Britannica, 2018].

2000-ci ildən etibarən isə Qəddafi və qərb ölkələri arasında münasibət yumşala dövrünə qədəm qoydu.Bunun başlıca iki səbəbi var idi. İlk olaraq sanksiyalar və beynəlxalq təzyiqlər liviya ölkəsini iqtisadi cəhətdən xeyli zəiflətmişdi. Bu illər ərzində liviya bir çox iqtisadi problem yaşayırdı. Digər bir səbəb isə 2001-ci 11 sentyabr terror aktı idi. Bu hadisə beynəlxalq sferda terrorizm qarşı mübarizəni intensivləşdirmişdi. Qəddafinin artıq digər silahlı qruplaşmaları dəstəkləməsi ona qarşı ciddi beynəlxalq etirazların yaranmasına gətirib çıxardacaqdı. Həmçinin o Amerikanın hədəfi olmaqdan qaçınırdı. Bu iki səbəb Liviya xarici siyasətində müəyyən yumşalmaların baş verməsinin ən başlıca səbəbi idi. Qəddafi hakimiyyətinin son illərində Qərb ölkələri ilə münasibətini yenidən nizamlamışdı.

2010-cu ildən etibarən Afrika və orta şərqdə ərəb baharı baş verməyə başladı. Ərəb baharı avtoritar rejimə qarşı nümayişlərin baş verməsi bu rejimlərin devrilməsi prosesinə verilən addır [Al Jazeera, 2020].

2010-cu il 17 dekabr Tunisli bir gənc polis zorakılığına qarşı özünü yandırdı. Bu Tunis xalqının avtoritar rejimə qarşı çıxmasına səbəb olduş Tez bir zamanda Ölkənin bir çox yerində nümayiş aksiyaları başladı. Xalq korrupsiya, rüşvət və rozakılığa qarşı birgə etiraz edirdi. 10 gün sonra Tunis prezidenti Ben Ali-nin Səudiyyə Ərəbistana qaçması ilə 23 illik hakimiyyət sona çatdı.Tunisdə baş verən bu hadisə qısa bir zamanda regionda yayıldı. Digər ərəb ölkələri vətəndaşları yerli avtoritar rejimə qarşı nümayiş aksiyalarına başladı. Tunisdən sonra Misirdə bir çox şəhərdə aksiyalar həyata keçirildi [Al Jazeera, 2020].

Liviyada Muammar al-qaddafi-yə qarşı etiraz nümayişləri 2011-ci ildə Benghazidə baş verimişdi [Thompson, 2016]. Müxalif qüvvələr tez bir zamanda şəhəri ələ keçirdi. Qəddafi bu üsyana qarşı silahlı qüvvələrdən istifadə etdi. Bu zaman hərbi personal və rejimdən bir çox şəxs ayrıldı. Çünki Qədaafinin bu proses zamanı addığı addımlar radikallaşmışdı. Həmçinin xalqın əksər hissəsi Qəddafi hakimiyyətindən narazı idi. 2011-ci ilin mart ayında NATO gəmi və təyyarələri Liviya ordusunu bombardıman etdi. Bu beynəlxalq cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. NATO kimi bir təşkilatın dövlətdaxili bir məsələyə hərbi müdaxilə etməsinə qarşı bir çox dövlət etiraz etdi.Bu zaman NATO-nun yerli müxalif qüvvələri dəstəkləməsinin və Qəddafi hakimiyyyətinə qarşı hərbi müdxilə etməsinin motivasiyası hökümətin neft və qaz sahələrini öz nəzarətində saxlaması idi. Avropa üçün Liviya enerji ehtiyatları Rusiyadan olan asılılığı azaltmağın alternativ bir yolu idi. Avqustun 21-i üsyançı qüvvələr Tripolini işğal etdi. Qəddafi geri çəkilməyə məcbur uldu. 2011-ci il 20 oktyabrda Qəddafi öldürüldü. Bu 42 illik avtoritar rejimin dağılması idi [Thompson, 2016].

Qəddafi bütün bu nümayiş zamanı bir çox dəfə müsahibə verdi. Bu zaman o xalq tərəfindən sevildiyini qeyd edirdi. Bu etiraz nümayişlərinin Əl-Qaidə

tərəfindən həyata keçirildiyini deyirdi. Liviya daxilində bu nümayişlərin kəskinləşməsinin əsas səbəblərindən biri Qəddafinin yerli xalqa qarşı vur əmri verməsi idi.

Ümumiyyətlə Livida baş verən xalq etirazlarının baş verməsinin bir neçə əsas səbəbi var idi. İlk olaraq iqtisadi bərabərsizlik idi. Neft və qaz gəlirləri Qəddafinin hakimiyyəti illərində ona sərbəstlik vermişdi. Lakin son illərə doğru Liviya iqtisadiyyatı zəifləmişdi. Bu isə xalqın kasıblaşmasına səbəb olurdu. Digər bir səbəb isə gəlirlərin düzgün paylaşdırılmaması idi. Qəddafi əldə etdiyi neft və qaz gəlirləti əsasən özü və tərəfdaşları arasında bölüşdürürdü. Digər bir tərəfdən isə 42 illik avtoritar idarəetmə xalq üzərində kəskin basqı yaratmışdı.

Həmçinin bütün bu proses Amerika və digər Avropa dövlətləri tərəfindən dəstəklənirdi. Bunun əsas səbəbi Qəddafinin Enerji sektorunu milliləşdirməsi idi. Bu Qərb ölkələrinin enerji sektoru idarəetməsinin qarşısını alırdı. Avropa ölkələri enerji tələbatında Rusiyadan asılı idi. Bu asılılığın qarşını almaq üçün alternativ yollar axtarırdı. Bunlardan biri Azərbaycan idi. Lakin Azərbaycan dövlətinin Avropa ölkələrinin asılılığını azaldacaq qədər geniş həmcli istehsalı yox idi. Bu isə Liviya enerji sektorunu daha da əhəmiyyətli bir hala salırdı. Belə bir situasiyada Avropa Qəddafiyə təsir edə bilmirdi. Buna görə də 2011-ci ildə Nato müxalif qüvvələri aktiv şəkildə dəstəkləyirdi. Yeni yaranacaq hökümət ilə daha əlverişli şərtlər ilə razilaşma əldə edə biləcəkdilər.

**3.Liviya vətəndaş müharibəsi və onun mərhələləri**

2011 ərəb baharından sonra Liviyada bügünə qədər davam edən vətəndaş müharibəsi başladı. Bu proses 4 inkişaf mərhələsindən ibarətdir.

1. İlkin qarşıdurmanin formalaşması (2012-2014)
2. Vətəndaş müharibəsi (2014-2016)
3. Tripoli müharibəsi (2017-2020)
4. Hakimiyyət uğrunda mübarizə (2020-bu gün)

**4.İlkin qarşıdurmanın formalaşması**

2011-ci ildə Qəddafinin öldürülməsindən sonra Liviyada yeni bir hökümət yaradıldı. 2012-ci ildə seçilmiş Ümumi Milli Konqres (GNC) hakimiyyətə gəldi. Lakin yeni hökümət dövlət üzərində tam nəzarət əldə edə bilmədi. 42 il davam edən avtoritar idarəetmə dövlət daxilində demokratik institutların formalaşmasının qarşısını almışdı. Bu yeni yaranan hökümətin zəif xarakterli olmasının başlıca səbəbi idi. Digər bir tərəf isə Qəddafiyə qarşı edilən münaqişə bir çox silahlı qruplaşmanın yaranmasına gətirib çıxartdı. Bu isə daxili stabilliyi pozurdu.

2012-ci ildə Benghazidə yerləşən ABŞ konsolosluğuna İslamçı militanlar tərəfindən hücum olundu. Bu Liviyada İslamçı militanların yüksəlməsinin göstəricisi idi. Daha sonra Ansar al-Şaria liderliyində Liviya dawn qruplaşması yarandı. Bu illər ərzində İslamçı militanlar bir çox şəhər və neft mədəni işğal

etdi. Buna cavab olaraq General Xəlifə Həftar “Şərəf əməliyyatı”-nı həyata keçirdi. Ümumi Milli Konqres yəni GNC-nin zəifliyi dövlət daxili parçalanmaya zəmin yaratdı. 2014-cü ildə parlament seçkiləri keçirildi. Bu seçkilərin nəticəsində General Xəlifə Haftar, GNC və İslamçı militanların namizədləri seçildi. Bu isə dövlət daxili qruplaşmanı kəskinləşdirdi. Bunun nəticəsində Haftarın dəstəklədiyi nümayəndələr palatası (HoR) Tobrukda fəaliyyətə başladı [Center for Preventive Action, 2023].

Bu zaman Liviyada bir çox qrup formalaşmışdı. Güclü və stabil bir idarəetmənin olmaması demokratik institutların yaranmasına maneə olurdu. Həmin silahlı qruplaşmalar müəyyən ərazilər üzrə öz idarəetmə orqanlarını yaradırdı. Bu isə Liviyanın parçalanmasını kəskinləşdirirdi. Digər bir tərəfdən bu situasiya radikal islamın yayılmasına şərait yaratdı. Struktur boşluqdan istifadə edən terroristlər bir çox əraziyə nəzarət edirdi.

Neft və qaz yataqlarını işğal edən bu qruplaşmalar tez bir zamanda xarici dəstək qazanırdı. Regiondakı enerji ehtiyatlarında marağı olan güclü dövlətlər bu fürsətdən istifadə edirdilər.

**5.Vətəndaş müharibəsi**

2015-ci ildə BMT-nin vasitəçiliyilə Milli razılaşma höküməti (GNA) yaradıldı. Ümumi Milli Konqres (GNC)-i Milli razılaşma hökümətinə çevrildi. 2014-cü 4 aprel tarixindən etibarən İslam dövləti (İŞİD) artıq Liviyada fəaliyyət göstərirdi. Daha sonra Yerli militanlar ilə birləşən İŞİD yeni yaradılmış hökümətin zəifliyindən istifadə etdi. Tez bir aman ərzində Tripoli, Benghazi şəhərlərində bir çox ərazi işğal etdi.Bu İslam dövlətinin ən güclü olduğu dövr idi. İslam dövləti 2015-ci ilin may ayında artıq bütün Sirt-i nəzarəti altına almışdı [Ashour, 2022, s.126].

2014-cü ildə İslam dövləti derna şəhərini işğal etdi. Bundan sonra İŞİD buranı öz vilafəti elan etdi. Yerli xalq və bir sıra zabitlər buna kəskin şəkildə etiraz etdi. Bu həmin il DMSC (Derna Mujahidin and Revolutionaries Shura Council)-un yaranmasına səbəb oldu. Bu qruplaşmanın əsas məqsədi İŞİD-i bu ərazidən qovmaq idi. Buna görə silahli münaqişəyə başlamışdılar. Digər bir səbəb isə Heftar liderliyindəki LNA-nın buranı zəbt etməsinin qarşısını almaq idi.

Bu minvalda həyata keçirilən ən vacib döyüşlərdən biri Hal laha min baqiya hərbi əməliyyatı idi. Şəhər mərkəzini azad etmək üçün gerilla taktikasından istifadə etdilər. 2016-cı ilə qədər DMSC və İŞİD arasında müharibə intensiv şəkildə davam etdi. Bunun nəticəsində 2016-ci ildə İŞİD Derna şəhərindən geri çəkilməyə məcbur oldu [Ashour, 2022, s132].

2016-cı ildə İslam dövlətinin (İŞİD)-in Sirt şəhərinə geri çəkilməsi ona strateji bir üstünlük qazandırmışdı. Sirt şəhəri Qəddafinin doğulduğu şəhər idi. Buna görə Qəddafinin bir çox dəstəkçisi burada idi. Qəddafi devrildikdən sonra Sirt şəhəri ictimai qınağa məruz qalmış və yeni hökümət tərəfindən

cəzalandırılmışdı. Bu isə bir çox narazıçılığa səbəb olmuşdu. Digər bir tərəfdən isə İslam dövləti Sirtə geri çəkildikdən sonra yerli idarəetmə yaratmışdı. Həmçinin əhaliyə qida da təmin edilirdi. Bu səbəblər Sirt əhalisinin İslam dövləti ilə uyğunlaşmasına gətirib çixartmışdı. İŞİD qüvvələri Derna şəhərindəki qədər müqavimətlə ilə qarşılaşmamışdı.

Sirt şəhərinin geri alınmasında ən vacib addım al-Bunyan al-Marsus (BM) əməliyyatı- may 2016 idi. Bu İslam dövlətinə qarşı yaradılmış koalisiya idi. Sayı etibarı ilə BM qüvvələri 6000 nəfərdən ibarət idi. Lakin İŞİD militanları şəhər və liman daxilində hücrə sistemi ilə yerləşmişdi. Həmçinin snayper silahları ilə ortaq taktikalardan istifadə edirdilər. Hərbi əməliyyatın ilkin dövründə BM qüvvələri Sirt şəhərinə daxil oldular. Lakin daha sonra şəhər daxili bir çox itki verdilər. İlin ortalarına doğru artıq hərbi əməliyyat tıxanma nöqtəsində idi. BM həddindən artıq itki vermişdi və qırılma nöqtəsində idi. Daha sonra avqust -dekabr ayında ABŞ-ın rəhbərliyində Operation Odyssey Lightning həyata keçirildi. Amerikanın yüksək səviyyəli texnologiyası və nizamlı ordusu ilə Sirte 6 dekabr azad olundu [Ashour, 2022, s.137-140].

Sirtin azad edilməsindən sonra qalan İŞİD qüvvələri geri çəkildi. Bu zaman İslam dövləti tam məğlub olmadı. Lakin artıq müqavimət aradan qaldırılmışdı. İŞİD artıq əvvəlki qədər güclü deyildi. Hökümət hər nə qədər qalib gəlsədə şəhər daxili nizamı yenidən bərpa edə bilmədi. Bunun əsas səbəbi yerli sistem və polisin kifayət qədər güclü olmaması idi.

Sirt şəhərinə hücumu zamanı Həftarın liderliyindəki LNA müharibədə aktiv iştirak etməmişdi. Həftar əsas olaraq Şərqi Liviya üzərindəki nəzarətini gücləndirmək istəyirdi. Buna görə yerli tayfaları öz tərəfinə çəkməyə çalışırdı. Digər bir tərəfdən isə Həftar bu sayədə Milli razılaşma hökümətini (GNA) zəiflətmək istəyirdi. Müharibənin dağıdıcı faktoruna görə Milli razılaşma hökümıəti kifayət qədər güclü bir idarətmə sistemi yarada bilmirdi. Həftar bu sayədə GNA-ə qarşı üstün gəlmək istəyirdi.

GNA-ın İŞİD ilə mübarizəsinə Amerika, Birləşmiş Krallıq və bir sıra Avropa ölkələri dəstək çıxmışdı. Lakin hərbi əməliyyat zamanı Hökümət həddindən artıq itki vermişdi. Bu onun daha sonra azad olmuş ərazilərdə nizam və intizamın yenidən təmini məsələsində çətinlik yaratmışdı. Digər bir tərəfdən isə LNA bu zaman öz resurslarını müdafiə edə bilmişdi. 2017-ci ildə İŞİD zəifləməsi kontekstintə müvəqqəti atəşkəs elan olundu. Lakin uğursuzluqla nəticələndi.

**6.Tripoli müharibəsi**

Milli razılaşma hökümıəti İŞİD ilə mübarizə nəticəsində xeyli zəifləmişdi və İqtisadi cəhətdən zərər görmüşdü. Bununla müqayisədə Həftarın liderlik etdiyi LNA İŞİD ilə aktiv mübarizədən qaçmışdı və öz resurslarını qorumuşdu. Buna görə də Həftar 2017-ci ildə Tripoli şəhəri yaxınlığıdakı strateji olaraq əhəmiyyətli ərazilərə hücum etdi. Hücum əsasən Oil Crescent adlanan bölgədə

gedirdi. Siyasi parçalanma baş vermiş Liviyada Neft gəlirləri birbaşa siyasi və hərbi güc mənasına gəlirdi. Buna görə də Oil Crescent bögəsini əldə etmək üçün hücumlar bura fokuslanmışdı. 2017-ci ildə Ras Lanuf və Əs-Sidra kimi mühüm neft limanlarını Həftar tərəfindən zəbt olundu. Bu limanlar neft ticarəti üçün həyati bir rola malik idi [Stephen, 2017].

2018-ci ildə Həftarın Tripoli ətrafında kiçik həmli hücumları davam etdirirdi. Şəhərin şərq tərəfi LNA tərəfindən nəzarət altına alınmışdı. Milli razılaşma hökuməti çətinliklə rəqib silahlı qruplaşmaları ilə mübarizə aparırdı. Bunun başlıca səbəbi kifayət qədər milis qüvvəsinin olmaması idi. Həftar aktiv olaraq BƏƏ, Misir və Rusiya tərəfindən dəstəklənirdi. Bu isə hərbi təchizat və texnoloji silahlar baxımından ona böyük üstünlük qazandırırdı.

Tripoli şəhərinə əsas hücum 2019-cu başladı. Hücum ilk olaraq şəhərdə yerləşən strateji əhəmiyyətə malik liman, hava limanları kimi yerlərin zəbti istiqamətində gedirdi. Həftarın liderlik etdiyi LNA əsas məqsədi Milli razılaşma hökümətini mühasirəyə almaq üçün şəhər mərkəsizə doğru planlı işğal idi.

Tripoli hücumunda ən önəmli fakt Türkiyə və GNA arasındakı razılaşmadır. 2019-cu ildə "Turkey-Liviya military cooperation agreement" adlı razılaşma imzalandı. Bu müqavilə Tripoli hücumu zamanı Milli razılaşma hökümətinə strateji və hərbi üstünlük qazandırmışdı [bbcnews, 2019].

2010-cü ildən sonra Avropa və Türkiyə üçün eastmed planı həyati bir əhəmiyyətə malik idi. İsrail, Kıbrıs, yunanıstan, İtaliya boyu hazırlanacaq qaz boru kəməri planı "Eastmed" olaraq adlanırdı. Bu zaman həmin boru kəmərini Türkiyə dəniz sahəsindən kənardan keçirilməsi planlanırdı. Bu planın məqsədi Avropa ölkələrinin Rusiyadan olan enerji asılılığını azaltması idi. Belə bir boru kəməri üzərində Türkiyənin söz sahibi olması Avropa ölkələri və digər tərəfdaşlar razı deyildi [Akgül, 2024].

Türkiyənin bu plan üzərində söz sahib olması Avropa üçün təhlükə yaradacaqdı. Türkiyə isə öz təsir dairəsini genişləndirmək və regionda söz sahibi olmaq üçün eastmed planına qarşı addımlar atırdı. Turkiyənin bura müdaxilə etməsi və ya bu yeni enerji dəhlizi üzrə söz sahibi olması onu regional güc edəcək bir fürsət idi.

Bu kontekstdə Türkiyə Aralıq dənizi boyu söz sahibi olmaq üçün Liviya Milli razılaşma hökuməti ilə yaxınlaşdı. Bunun nəticəsində 2019-cu ildə "Turkey-Liviya maritime deal" əldə olundu. Bu razılaşma Türkiyənin Aralıq dənizi və bu bölgədəki enerji lahiyələrinə təsir etməsinə şərait yaratdı [Akgül, 2024].

Bunun nəticəsində isə Türkiyə Milli razılaşma hökümtinə hərbi və lojistik yardım etməli idi. Yüksək səviyyəli İHA və SİHA texnolojiyası GNA-in Tripoli hücumunu geri püskürtməsinə səbəb oldu. Həmçinin Türkiyə

Tripolinin müdafiəsi üçün hərbi məsləhət və müdafiə istehkamlarının qurulması kimi yardımlar etdi.

2020-ci ildən etibarən iki tərəf arasında atəşkəs danışıqları başladı. Bu andan etibarən ciddi hərbi qarşıdurmalar baş vermədi. Həftar isə Tripolinin uğursuz işğalı nəticəsində siyasi və hərbi olaraq prestij itirdi. Liviyadakı güc münaqişəsi GPA və HoR arasında davam baş verməyə başladı.

Qəddafi dövründə Liviya avtoritar rejim ilə idarə olunurdu. Hakimiyyətin ilk illərində Liviya iqtisadi və sosial olaraq rəfah dövründə idi. Qəddafi pulsuz tibbi xidmət, təhsil və daha bir çox islahat ilə xalq tərəfindən rəğbətlə qarşılanırdı. Lakin onun regional güc olmaq uğrunda apardığı mübarizə dövlətin siyasi, iqtisadi və sosial olaraq geriləməsinə gətirib çıxartmışdı. İqtisadi böhran, siyasi basqı və uzunmüddətli avtoritar idarəetmə 2011-ci il hadisəsinin baş verməsinə səbəb oldu. Lakin bu uzunmüddətli vətəndaş müharibəsinin başlanğıcı idi.

Liviyada 13-ildən çox davam edən daxili qarşıdurmaların əsas səbəblərindən biri xarici faktorudur. Dövlətlər regiondakı maraqları naminə Müxtəlif qrupları dəstəkləyirlər. Bu isə siyasi parçalanmanı dərinləşdirir. Ölkədə güc qazanan hər bir silahlı qruplaşma neft hesabına özünə xarici dəstək tapa bilirdi. Bu isə silahlanma və radikallaşmanı artırır.

## 7.Hakimiyyət uğrunda mübarizə

2020-ci ilin avqustun ayında GNA təktərəfli atəşkəs elan etdi. Daha sonra Həftar ilə neft blokadasının aradan qaldırılması barəsində razılaşma əldə olundu. Bu mərhələdə iki tərəf arasında mübarizə siyasi kontekstdə gedirdi. Daha sonra dekabr ayının 24 2021-ci ildə yeni parlament və prezidentlik seçkiləri keçirilməsi üçün yol xəritəsi hazırlandı. Liviya Siyasi Dialoq Forumu (LPDF) müvəqqəti hökuməti Milli Vahidlik Hökumətini (GNU) mart 2021-də yaratma qərarı aldı. LPDF BMT qərarı ilə yaradılmış və Liviya siyasi parçalanmasının qarşısını alma funksiyasını yerinə yetirən platformadır. Milli Vahidli Hökumətinin əsas məqsədi GNA və HoR olmaqlar bütün tərəfləri bir araya gətirərək siyasi sabitlik əldə etmək idi. İlk vaxtlar bütün tərəflər bu yeni situasiyadan razı Lakin 2021-ci il seçkiləri zamanı HoR yeni yaradılmış GNU-ya etimad etmədiyini bildirdi. Bu seçkilərin təxirə salınmasına səbəb oldu. 2025-ci ilə qədər Liviya daxili proseslər əsasən siyasi güc mübarizəsi idi. Buda stabil və güclü bir hökümətin yaranmasına maneə olurdu. [Center for Preventive Action, 2023].

## 8.ƏDƏBİYYAT

**1.** Al Jazeera. (2020, December 17). What is the Arab Spring, and how did it start? *Al Jazeera*. Retrieved from https://www.aljazeera.com/news/2020/12/17/what-is-the-arab-spring-and-how-did-it-start

**2.** Anadolu Ajansı. (2019). US officials meet Liviya’s Haftar to end Tripoli attack. *Anadolu Ajansı*. Retrieved from https://www.aa.com.tr/en/africa/us-officials-meet-liviyas-haftar-to-end-tripoli-attack/1655601
**3.** Akgül, A. (2024, December 31). Türkiye’siz Doğu Akdeniz tahayyülü: EastMed projesi. *Uluslararası Diplomatik İlişkiler, Akademik Araştırmalar ve Eğitim Derneği*. Retrieved from https://udiad.org/turkiyesiz-dogu-akdeniz-tahayyulu-eastmed-projesi/
**4.** Ashour, O. (2022). How ISIS fights: Military tactics in Iraq, Syria, Liviya and Egypt. *Dokumen.pub*. Retrieved from https://dokumen.pub/how-isis-fights-military-tactics-in-iraq-syria-liviya-and-egypt-9781474438230.html
**5.** BBC News Türkçe. (2019, December 26). Liviya tezkeresi: Türkiye’nin stratejisi ne? *BBC News Türkçe*. Retrieved from https://www.bbc.com/turkce/haberler-turkiye-50918216
**6.** Encyclopædia Britannica. (2018). Muammar al-Qaddafi. *Encyclopædia Britannica*. Retrieved from https://www.britannica.com/biography/Muammar-al-Qaddafi
**7.** Center for Preventive Action. (2023, January 6). Civil war in Liviya. *Global Conflict Tracker*. Retrieved from https://www.cfr.org/global-conflict-tracker/conflict/civil-war-liviya
**8.** Issitt, M. L. (2020). Second Liviyan Civil War. *EBSCO Research Starters*. Retrieved from https://www.ebsco.com/research-starters/military-history-and-science/second-liviyan-civil-war
**9.** Stephen, C. (2017, March 15). Liviyan oil wars and the battle for Tripoli. *The New Humanitarian*. Retrieved from https://www.thenewhumanitarian.org/analysis/2017/03/15/liviyan-oil-wars-and-battle-tripoli
**10.** Thompson, N. (2016, September 25). Arab Spring aftermath: Liviya. *Foreign Policy Association*. Retrieved from https://fpa.org/arab-spring-aftermath-liviya/

## REFERENCES

**1.** Al Jazeera. (2020, December 17). What is the Arab Spring, and how did it start? *Al Jazeera*. Retrieved from https://www.aljazeera.com/news/2020/12/17/what-is-the-arab-spring-and-how-did-it-start (in English)
**2.** Anadolu Ajansi. (2019). US officials meet Liviya’s Haftar to end Tripoli attack. *Anadolu Ajansi*. Retrieved from https://www.aa.com.tr/en/africa/us-officials-meet-liviyas-haftar-to-end-tripoli-attack/1655601 (in English)

3. Akgul, A. (2024, December 31). The vision of the Eastern Mediterranean without Turkiye: The EastMed project. *Uluslararasi Diplomatik Iliskiler, Akademik Arastirmalar ve Egitim Dernegi*. Retrieved from https://udiad.org/turkiyesiz-dogu-akdeniz-tahayyulu-eastmed-projesi/ (in Turkish)
4. Ashour, O. (2022). How ISIS fights: Military tactics in Iraq, Syria, Liviya and Egypt. *Dokumen.pub*. Retrieved from https://dokumen.pub/how-isis-fights-military-tactics-in-iraq-syria-liviya-and-egypt-9781474438230.html (in English)
5. BBC News Turkce. (2019, December 26). The Libya mandate: What is Türkiye's strategy? *BBC News Turkce*. Retrieved from https://www.bbc.com/turkce/haberler-turkiye-50918216 (in Turkish)
6. Encyclopaedia Britannica. (2018). Muammar al-Qaddafi. *Encyclopaedia Britannica*. Retrieved from https://www.britannica.com/biography/Muammar-al-Qaddafi (in English)
7. Center for Preventive Action. (2023, January 6). Civil war in Liviya. *Global Conflict Tracker*. Retrieved from https://www.cfr.org/global-conflict-tracker/conflict/civil-war-liviya (in English)
8. Issitt, M. L. (2020). Second Liviyan Civil War. *EBSCO Research Starters*. Retrieved from https://www.ebsco.com/research-starters/military-history-and-science/second-liviyan-civil-war (in English)
9. Stephen, C. (2017, March 15). Liviyan oil wars and the battle for Tripoli. *The New Humanitarian*. Retrieved from https://www.thenewhumanitarian.org/analysis/2017/03/15/liviyan-oil-wars-and-battle-tripoli (in English)
10. Thompson, N. (2016, September 25). Arab Spring aftermath: Liviya. *Foreign Policy Association*. Retrieved from https://fpa.org/arab-spring-aftermath-liviya/ (in English)